RƏŞİD

DAĞLAROĞLU

# QƏLB ALLAHIN EVİDİR

Bakı 2007

## Tanışlıq

1937-ci ildə Qərbi Azərbaycanda, Qafqaz boyu uzanan doğma Borçalının Dağlıq bölgəsində anadan olmuşam. İlməzli kəndində. Belə bir kənd də Borçalının Aranında var, Kürün qırağında.

Bunlara «Dağ İlməzli», «Aran İlməzli» deyirlər. (Arandakına bəzən «Kürüstü İlməzli» də deyirlər).

Ilməz əslində Yılmazdır. Yıldırım-Ildırım, Yıldız-Ulduz… kimi bu da Azərbaycan türkcəsində beləcə ifadə olunur.

Orta təhsilimi İlməzlidə, Ali təhsilimi Bakıda almışam. Azərbaycan Dövlət Universitetinin ъurnalistika fakültəsini bitirmişəm.

1967-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Şirkətində – Radionun «Xəbərlər» baş redaksiyasında işləyirəm.

Buna qədər kəndimizdə quzu da otarmışam, əsgər də olmuşam. Maşınqayırma zavodlarında çertyoъların göstərişi, dəzgahların köməyi ilə çoxlu adda, çoxlu sayda dəmir də yonmuşam, müxtəlif hissələr düzəltmişəm.

Dəmiri yonmağa nə var ki. Sözü yonmaq çətindir. Sözdən söhbət düzəltmək çətindir. Quzuları otarmağa nə var ki.

Gərək canavarları otara biləsən. Əsgərlik də onu kimi. Gərək həmişə şərəfli döyüşçü olasan. Elə-belə demirlər ki, - «Həyat mübarizədir!». Allah-Tala yaratdıqlarını yaşatmaq üçün, həm də onları bir-birinə yem yaradıb.

Insan heç vaxt özündən qaçanmaz. O, bütün hərəkətlərində, söz-söhbətlərində özünü ifadə edir. Özgədən danışanda belə o, özündən danışır.

Odur ki, söhbətimin qalan hissəsini yazılarım davam etdirəcək…

Bu da «Bir ömrün nəğmələri»dir.

***Sizə dərin hörmətlə:***

***Rəşid Kazım oğlu Kazımov.***

**R** $\frac{4913756796}{050}$ **Grifli nəşr**

© *«Araz»*

## Ön söz əvəzi

Kitabıma rəy yazdırmaq həvəsində özüm olmamışam. Bunu iki səbəbə görə eləməmişəm. Birincisi kitabım balacadır. Həm də kitab yazmaq işi çətindir, məsuliyyəti böyükdür. Çəkinmişəm. İkincisi yazılan rəylərlə oxucuların fikirləri hərdən uyğun gəlmir. Zənnimcə oxucuların münasibəti daha münasibdir. Kitabın taleyi onlardan çox asılıdır.

Məni qınamayın, kitabların taleyi, ömür yolu insanlarınkı kimidir. Vərəqlərini çevirəndə elə bil kitablar da nəfəs alır. Səhifələrindən səsi gəlir, söhbəti eşidilir. Hər kitab da hamıya yovuşmur. Onların da öz həmsöhbəti, dostu, yoldaşı olur. Kitab var çox yaşayır, kitab var az.

Bayaq dediyim kimi kitabları yaşadan oxuculardır.

Əlbəttə kitaba müsbət rəy yazdırmaq da olardı, sözlərini səsləndirmək də. Xətir-hörmətə çox şey eləmək olardı. Mən bunları eləmədim.

Heç kəs başqasının hesabına halal hörmət qazana bilməz.

***Müəllif.***

## Var

Rəhim, Mərhəmət Allahnan. Dərsini al bu kəlamdan!
Tanrısından dərs alanın dərgahında hörməti var.

Kamil olan Bir Allahdır! Heç kəsə kamildi demə.
Haqqa sən olma müxalif, günahdır! töhməti var.

Yaxşı ol! Yaxşılıq et! Allahın hökmü mütləqdir,
Dar gününə daralmaynan, gəlib-keçər möhləti var.

Ağrısız can kimdə var?! Can olmasa cism ağrımaz,
Can çəkər öz cəfasını, gileylənmə adəti var.

Allah özü hifz eləyər yaxşı kəsi hər xatadan,
Yaxşı ol! Yaxşılıq et! Allahın kəraməti var.

Rəşidin Dünyası var! Borcu var Dünyası qədər!
Haqqı var, zəhməti var, Allaha ibadəti var.

Şükrdən başqa nəyim var, baxasan görməyəsən?
Görən deyir bəxtəvərin gör nə qədər dövləti var!

«Mən, Allahdan başqa heç kimdən qorxmuram» deyənlərə.

Bismillah ir Rəhman ir Rəhim.

Bu müqəddəs ayədə Allahın adı Mərhəmət və Rəhimlə birlikdə çəkilir.

Bu, həm də insanlar üçün İlahi Dərsdir! Allahın ən xoş vaxtında yaratdığı insanların da Mərhəmətli və Rəhimli olması Hökümdür və Mütləqdir!

Zənnimcə «Allahdan qorxuram» demək günahdır! O, qorxulu qüvvə deyil. Mərhəmətli və Rəhimlidir. Ən böyük Səxavət sahibidir. Allah bağışlayandır. İşıqlı və Nurlu varlıqdır. Son dərəcə gözəldir. İnsanlar Böyük Yaradanı dərk etməlidir. İnsan oğlu özündən, öz nadanlığından, öz bəd əməllərindən qorxmalıdır.

Ən yaxşısını və düzgününü Allah özü bilər.

Elə ol ki, Allah səndən razı olsun!

## Ziyarətə gələsən

Bu dünyanın hər zərrəsi qızıldır,
Fəhmin ola götürəsən görəsən.
Artıq-əksik yaratmayıb Yaradan,
Kəpək çıxmaz bu dünyanı ələsən.

Pir olasan batmayasan günaha!
Deməyəsən bu ucuzdu, bu baha.
Zikr edəsən, Şükr edəsən Allaha,
Yeri-Göyü Yaradanı sevəsən

Allah eşqi ürəyimdə böyüdü,
Dağlaroğlu, unutma bu öyüdü:
- Təmiz saxla, qəlb Allahın evidi!
Belə yeri ziyarətə gələsən.

## Öyrən

Insan bir Dünyadır! Sirli-soraqlı
Tanıya bilməzsən yüzündən öyrən.
Özünə bələd ol – səsini dinlə,
Onu söhbətindən, sözündən öyrən.

Peyğəmbər olsan da Allahdan kömək,
Heç kəsə qismət döy hər şeyi bilmək.
İnsana zinətdir görmək-götürmək,
Əslindən gör-götür, düzündən öyrən.

Mənim sözlərimi saxla yadında –
Mələk var, İblis var insan donunda.
Günaha batmaynan Haqqın yolunda,
İnsanın özünü özündən öyrən.

## Dedim

Güllərin gur vaxtı, bir yaz axşamı,
Eşqimi min güldən bir Gülə dedim.
Allah sənə şükür, nə bəxtiyaram,
Bir böyük dastanı göz ilə dedim.

Danışmaq istədim, sözüm qırıldı,
Gözəllik önündə boynum buruldu.
Zavallı könlümdə bir toy quruldu,
«Insan xoşbəxt olar, bir belə?!» dedim.

İyrimbir yaşında titrədi əlim,
Məni bu yaşımda qocaltdı Gülüm.
Üzündə nur gördüm açıldı dilim,
- Gör nələr çəkirəm, hiss elə dedim!

Dedim, gül tapmadım səndən tər-təmiz,
Yaşaya bilmərəm, ölərəm sənsiz!
«Qul xatasız olmaz, ağa kərəmsiz»,
Qapında quluna rəhm elə dedim.

Rəşidəm cənnətə saldım özümü,
Gözəllikdən çəkənmirəm gözümü!
Bu qəfil eşqimi, qəfil sözümü,
Bütün gözəllərdən gözələ dedim.

## Könül bağladım

Vəfasız gözələ könül bağladım,
Ömrüm hədər getdi cavan yaşımdan.
Yanan bilər məhəbbətin odunu,
Od-alovu aralanmır başımdan.

Gəldim görüşünə tapa bilmədim,
Fikrini başımdan ata bilmədim,
Gecələr yerimdə yata bilmədim,
Göylər Gözəlisən, bildim ey Mələk!
Baş aça bilmədim Yerdə işindən.

Bulaq idim, çaya düşdüm çağladım,
Daşa dəydim için-için ağladım,
Çöllərdən gül dərdim, qoma bağladım,
Ətrini vermədi nə gül, nə çiçək,
Güllərə şeh düşdü gözmün yaşından.

Rəşid, qarışdırdın Yazı Çilləynən,
Bilmədin oynadın dağlar seliynən.
Bir şam ki yanmasa Haqqın əliynən,
Onu söndürəcək xəfif bir külək
Qalsın ki sel gələ dağlar başından.

## Bir Gözəlin eşqinə

Ay Mələyim, bir gözəlin eşqinə
Oda düşdüm, qoyma yandım amandı!
Ona baxdım, qəza gəldi başıma,
Başkeçiddə yer başıma dolandı.

Ay Mələyim yad bilməsin sözümü,
Səni tapıb itirmişəm özümü.
Gözəllikdən çəkənmirəm gözümü,
Leyli desə – Mən gözələm. Yalandı.

Hər qəzanın qurbanı var ay xanım,
Döndər məni qoy başına dolanım,
Rəşid deyir ondan sonra al canım,
Bir Yaxşılıq, bir Yamanlıq qalandı.

## And Yerim

Bu yer sənin yadındamı?!
Mən səni sevdiyim Yerdi.
Mən dedim ki, - gəl evlənək!
Sən məni söydüyün Yerdi.

Bu nə məslək, bu nə Dindi?!
Acısı baldan şirindi.
Bura mənim And Yerimdi
Sən məni döydüyün Yerdi.

Dilim gəlmir necə deyim?!
Tapdığımı itirdiyim,
Sənə çiçək gətirdiyim,
Xətrinə dəydiyim Yerdi.

Mat qalmışam, düzü vallah
Sonrası Allaha pənah.
Biri Savab, biri Günah!!
Mən səni sevdiyim Yerdi!
Sən məni söydüyün Yerdi!

Yazıyazan belə yazdı;
Hər yozan bir cürə yozdu.
Rəşid, sənə bu da azdı,

Özünü öydüyün yerdi.

**Sevgilim**

Şükür, Sən varsan! Neynirəm
Dövləti-malı sevgilim.
Hörmətinə qoy baş əyim,
Mənim vəfalı sevgilim.

Atam-Anam, evdəkilər…
Səni məndən çox sevdilər.
Səsi ipək, sözü şəkər,
Mənim hayalı sevgilim.

Bayramımdı Gəldiyin gün!
Ay evimin-eşiyimin,
Ay körpəmin, beşiyimin
Cahı-calalı sevgilim.

Yarıcanım, yandım inan!
Saçların ağarıb yaman.
Ağ saçına özüm qurban,
Mənim Sayalı sevgilim.

## Bir kənd gördüm

Kəndinizə qonaq gəldim,
Necə gözəl bir kənd gördüm.
Bir yerdə nöqsan görmədim,
Hər yerdə mərhəmət gördüm.

Hava təmiz, sular duru,
Insanlarda üzün nuru.
Rəssam çəkib Göyü, Yeri,
Qələmində qüdrət gördüm.

Bağlarında hər meyvəsi,
Dağlarında şəlaləsi,
Çaylarında zümzüməsi,
Elə bil ki, cənnət gördüm.

Abad olsun sizin ellər,
Qonağı başa çəkirlər,
Adına qurban kəsirlər,
Eldə gözəl adət gördüm.

Torpaq halal, insan halal,
Onunçündü bu cah-calal,
Halallığa yoxdur zaval,
Halallıqda hikmət gördüm!
Necə gözəl bir kənd gördüm.

## Allahımdan razıyam
## (Mübarək toylar üçün)

Cavanlaşdım onda bildim yaranmışam yarımcan,
Şükr Allaha! Bütövləşdim birləşəndə yarıma.

Mən şükürsüz olmamışam, Allahımdan razıyam!
Yüz qaratel tay olanmaz bir ağbirçək qarıma.

Taqsırım var, inadkaram, eşqi pünhan olmuşam,
Dilimdə yox, ürəyimdə can demişəm yarıma.

- Rəşid, yenə Şah demisən! Mən sənə mat qalmışam,
Dağlaroğlu, şükr eləynən varlığına, varına.

- Şükür, haqsız olmamışam qismətimdən razıyam,
Dünya malı dünyanındır, düşməmişəm toruna.

Haqq sözlərim Haqdan gələr elə bilmə sərxoşam,
Cahan Mülkü tay olanmaz bir ağbirçək qarıma.

***

Arzum budur bütün gənclər öz yarından yarısın,
Nəvə-nəticə görsünlər, yüz il qoşa qarısın.

Öz yarımla, öz qarımla mən də görüm o günü.
Insan gərək Şükr eləyə VARLIĞINA, VARINA.
Insan gərək zəngin ola, tamahından qoruna.

## Əzizim

Gözəl Yarım, yarı yaşın mübarək!
Yüzə yetiş əlli yaşdı əzizim.
Allah səni hər arzuna çatdırsın,
Gülər üzlü, gümüş saçdı əzizim.

Bilirsənki yalan yoxdu sözümdə,
Bir sən, bir də, üç balamdı gözümdə.
Ləzzət verir göyərtin də, duzun da,
Qayqanağın daha xoşdu əzizim.

Şükr Allaha! uduzmadıq seçimdə,
Ay Sayalım bərabərik biçimdə.
Şeşələnib altmışımın içində
Rəşid sənə qoşma qoşdu əzizim.
Bu gün mənə necə xoşdu əzizim!

## Bir də gül!

«Nə gözəlsən!» İki kəlmə söz dedim.
Mənim kimi binəvaya bir də gül!
Öldürsələr yalan gəlməz dilimə,
Sən salmısan bu bəlaya, bir də gül!

Ismətini öyrənmişəm gözündən,
A bəxtəvər, nur tökülür üzündən,
Allah haqqı incimərəm sözündən,
Bu yaşımda bu sevdaya bir də gül

Canım yaman üşümüşdü, isindi,
Sən xoşbəxt ol gülməyində bəsimdi.
Dinlədiyim nəğmədi, ya səsindi?!
Rəşid deyir mən qocaya bir də gül!

Elə bilmə gülünc günə qalmışam,
Bir çiçəyin ətrin aldım, sərxoşam.
Bir ceyranın kölgəsindən vurmuşam,
Əziyyətim döndü zaya bir də gül,
Tüfəng təpdi düşdüm çaya bir də gül.

## Gözəl gördüm

Musaköydə bir qız gördüm,
Qaşı qara, gözü qara.
Ya Huridi, ya Məleykə
O Göy hara, bu Yer hara?!

Adı Gözəl, özü gözəl,
Səsi gözəl, sözü gözəl.
Dovğasının duzu gözəl,
Hər qaşığı dərdə çara

Şalını çarpaz sarıyıb,
Saçını yellər darıyıb,
Bu qız Allahdan yarıyıb,
O hakimdi – Hökümdara.

Budur duam axşam-sabah,
Verdiyinə şükür Allah!
Eləmişəm mən nə günah?!
Bağrım olub para-para.

Heç bilmirəm nədir dərdim?!
Üç gündə yaman əridim.
İstəsə canım verərdim,
Heç baxmazdım yoxa, vara

Anana de, Atan bilsin!
Bizimkilər sizə gəlsin.
Atan səni mənə versin!
Yanlarında üzüm qara.
Verməsələr budur çəmi,
Gəl götürüb qaçım səni!
Ya bir yolluq öldür məni,
Özün basdır buralara…
Rəşid qurban! Gözəl yara.

## Allah

Dolaşır dünyanı fikir karvanım,
Mən özüm özümlə qalanda Allah.
Xəyallar içində çaşır Sərvanım,
Səbr də tükənir, güman da Allah.

Mən belə bilməzdim düzü Dünyanı,
Canavar dünyanı, quzu dünyanı.
Bu zalım insanı, fağır insanı,
Yoxsul da eləmə, Firon da Allah.

Dağlaroğlu, Dünya deyil boşuna
Çox qarışma bu Dünyanın işinə.
Taxta çıxıb Tac qoysanda başına,
Verən də Allahdı, alan da Allah.

## Dedim, dedi

Babam, Niyə Allah Birdi din ayrı?!
Din bir olsa təriqətə bölünməz.
Babam dedi – Allah bilən yaxşıdır,
Çox şeylər var gözümüzə görünməz…

Bir Allaha qulluq eylə ay bala,
Nə dindar ol, nə təriqət qurdala.
Tale salar, hərə düşər bir yola,
Günah nədir, Savab nədir bilinməz.

Yaradandır Yerin, Göyün əzəli,
Yaratdığı Gözəllərin Gözəli.
Səxavətdir İbadətdən irəli,
Görə bilsən! görünəndi Görünməz.

## Həsənbala

Yoldan çıxma, Həsənbala!
Xeyir tapmaz yolun azan.
Rəhmət olsun Atalara,
Özü düşər quyu qazan.

Söz demərəm elə-belə,
Yaşım məni qınar, Lələ.
Bir fürsətdir düşüb ələ,
Vəzifən var hörmət qazan.

Adamları yarı bölmə,
Heç kim deyil «yerli»-«gəlmə»!
Sadə şeyi ucuz bilmə,
Tənha deyil, tənha gəzən.

Ruzi var ki, aşar başdan,
Ruzi də var çıxar daşdan!
Belə gördüm əzəl başdan,
Belə yazıb Yazıyazan.

Elə şey var Həsənbala,
Gəlməz pula, getməz pula!
Adam yaşa dola-dola,
Uşaqdan öyrənir bəzən.

Xəbərin var, Rəşid kişi?!

Yola saldın yarı yaşı,
Yol gözlədin addımbaşı,
Özü kimi yozdu yozan.

***Allah haqdır! Hər şey Haqqa ayandır.***
***Haqsız olsan ibadət də yalandır.***

## Bu dünya

Suçum varsa babam məni bağışlar,
Şeytanların əlindədir bu dünya!
Müxənnətlər yaltaqlanır şeytana,
Yaltaqların dilindədir bu dünya.

Allah haqdır! Hər şey Haqqa ayandı,
Haqsız olsan ibadət də yalandı.
Bu Dünyada canım oda qalandı.
Zalımdadır, zülmdədir bu dünya,
Allah, Allah! Nə gündədir bu dünya.

Zülm eyləyir iş başına kim gəlir,
Görürəm ki, kim ağlayır, kim gülür.
Dağlaroğlu haqsızlığa dözənmir,
Varlıların əlindədir bu dünya,
Kasıbların belindədir bu dünya!

## Bu nə bazardı?!

Ha çalışdım bir də gileylənməyəm,
Qardaş, dözmək olmur; bu nə bazardı?!
Insaf itir, qiymət qalxır günbəgün,
Satana bayramdı, alan bezardı!

Hər dəfə bazarda sözüm çəf gəlir,
Dilsiz tərəzi də mənə kəf gəlir;
Xırdamı alıram o da səf gəlir,
Baş aça bilmirəm bu nə azardı?!

Düşünəndə adam gəlir heyrətə!
Beş gün dolanmırsan aylıq zəhmətə.
Bəlkə Göydən bəla gəlib millətə?!
Ha yana baxırsan giley-güzardı!

## Qoca

Həqiqətə, hikmətə bax!
Gör nə böyük vardı qoca.
Qanundan qabaqdı sözü,
Böyük hökmdardı qoca.

Zinətidir pir kamalı,
Gözündə döy dünya malı.
Budur onun cah-calalı –
- Haqqa tərəfdardı qoca.

Peyğəmbər tək alicənab,
Nə soruşsan düzdü cavab.
Əlindən öp, çoxdu savab,
Nəcib ixtiyardı qoca.

Işığa bax ağ saçında,
Söhbətə bax yüz yaşında.
Elə bil ki, dağ başında,
Aydan arı qardı qoca.

Ürəyində, üzündə nur,
Söhbətində, sözündə nur,
Paltarında, gözündə nur,
Həmişə zəvvardı qoca.

Namaz qılar, Zikr eləyər!
Yaradana Şükr eləyər!
Əmin-amanlıq diləyər,
Bin-bərəkət, bardı qoca.

## Qoca gördüm

Bir ağsaqqal qoca gördüm,
Dedi, pulsuz keçmir sözüm.
Dedi – Allah, bu vaxtımda,
Bu möhnətə necə dözüm?!

Gedənmirəm dosta qonaq,
Şalvar köhnə, köynək yamaq
Utanıram düzü vallah,
Süzəlib dirsəyim-dizim.

Dəftər itib, baş qarışıb,
Oğru-əyri həddin aşıb.
Əyri qalıb, düz dolaşıb!
Allahımız puldu bizim.

Bir dəstə var – başı qatır,
Bir dəstə var – alıb-satır.
Şikayətim kimə çatır?!
Kimə deyim, kimə yazım?!

Eləmişəm ələk-vələk,
Yerdən, Göydən yoxdu kömək.
Nə yazırsan yaz ay Mələk;
Oxuyan yox, canım-gözüm.

Yaşayırıq gör nə gündə!
Neyləyəsən belə sində?!
Belə Allah, belə bəndə,
Mat qalmışam nəyə lazım!

## Dağların

Dağlar oğlu, Göylər sənə yaxındı,
Qaldırıbdı səviyyəsi dağların.
Yarıyolda çox deməynən özündən,
Görünürmü gör zirvəsi dağların?!

Yaman olur çillələrin boranı!
Adam üstə üçqat örtür yorğanı.
Xumarlanır yazbaşının dumanı,
«Oyan!» deyir züm-zümməsi dağların.

Güldən desəm Ələsgərdən ayıfdı,
Hər çiçəyi bircə-bircə sayıfdı.
Sazaq əsir, gül üşüyür hayıfdı,
Gün görməyir Ov Dərəsi dağların.

Allahım bir, Qibləgahım Gülədi,
Dərk edənnən ibadətim belədi.
Bu Gözəllik məni heyran elədi!
Bu yannan da mələkəsi dağların!

Dağlaroğlu, muğayat ol özündən!
Adamları tanıyırlar sözündən.
Dur zəm-zəm iç bulaqların gözündən,
Budur sənə tövsiyyəsi dağların.

## Şair və şeir

Şair qaçmaz söz dalınca,
Gərək onun özü gələ.
Sözu-sözə uydurmaqla,
Ondan şeir olmaz lələ.

Yoxdu belə çətin peşə,
Şair gərək oda düşə!
Özü yana, sözü bişə!
Şair ağlar gülə-gülə.

Rəşid, sən də eşit məni,
Istəyib deyirəm səni.
Nə öznü yor, nə özgəni,
Yazıb-cırma innən belə.

## Bir övlad da gəlindir

Evimizə gəlin gəlir, qədəmləri sayalı!
Qızılgüldən yaraşıqlı, Bənövşədən hayalı.
Gözümüz yox cer-cehizdə, nə bahalı maşında,
Mənim balam, uğur gəlsin ayağında-başında.

***

Şükr Allaha! Oğul balam gör nə gözəl qız seçir,
Gəlin balam qoşa qarı, gəlin gətir, qız köçür.
Sən özün də qaynana ol, qaynananı sevindir,
Qaynata da bir atadır, bir övlad da gəlindir.

***

Rəşid Ata, çox Maşallah! Gör nə əziz günündü.
Xeyir-dua Allahındı! Şükr eləmək sənindi.
Eldə-gündə toylar olsun, toy-bayramlar elindi.
Allahıma birdə Şükür! Bütün Dünya mənimdi.

## Pul

Kövrək könlüm qubarlanma,
Çox eyləmə vara meyil.
Bu var-dövlət, bu pul-para,
Çox şeydisə, hər şey deyil!

***

Bir də məni eşit bala,
Qazancından qalma dala.
Eləbelə baxma pula!
Pulsuz adam, adam deyil.

## Şükr et!

Allahın nə xoşbəxt bəndəsiyəm mən,
Nə pulsuz olmadım, nə pulum oldu.
Ehtiyac içində ömür yaşadım,
Bir dəfə demədim nə zülüm oldu.

Ay Rəşid axtarma, tapanmazsan tay,
Hər şeydən bahadır Allah verən pay!
Allah verən payı sayanda düz say,
Şükr et, nə qul oldun, nə qulun oldu.

## Dağların

Ətrafa bax, İlməzlinin düzündən,
Qurban olum sırasına dağların.
Bizim dağlar bir-birindən ucadır,
Gün düşməyir dərəsinə dağların.

Büllur çaylar, Abu-Kövsər bulaqlar,
Ağ çalmalı bu dağlardan qaynaqlar.
Həm loğmandı, həm dərmandı yaylaqlar,
Nuh dirilər havasına dağların.

Boran qalxıb, qar yolları kəsəndə,
Koroğlu da girənməzdi bu kəndə.
Qış ayları təzək peçi təpəndə,
Deyinmişəm qarasına dağların.

Bürmələnib evimizdən çıxanda,
Qonşumuza gedənmədim boranda.
Bir gözəlin gözü yolda qalanda,
Nə deyəsən burasına dağların?!

Bu dağların qışı-yazı gözəldi,
Meyxanası, xoş avazı gözəldi.
Öz vaxtında beş namazı gözəldi,
Səcdə edəm qibləsinə dağların.

Nə gizlədim! Çox gəzdirdim gözümü,
Öz yerimdə görənmədim özümü.
Mən, Dağlardan öyrənmişəm dözümü,
Mən dözərəm davasına dağların.

Dağlaroğlu, özünə bax qıraxdan,
Adam qızmaz ocağına uzaqdan.
Ilməzliyə gəlməmisən nə vaxtdan?!
Rəhmi gəlsin balasına dağların.

## Dərk etdim

Dərk etdim Anadır Allahdan sonra!
Qızının toyunda bir Ana gördüm.
Bu toyda bir haldan min hala düşdüm,
Dəyişib nə qədər zamana gördüm.
Sığışmaz bu söhbət dastana gördüm.

Ilqardı, ilhamdı, sevincdi həyat!
Elin bayramıdır bu toy, bu büsat.
Toyun adamları açır qol-qanad,
Ananı bu toyda pərvanə gördüm.
Ananı Ər gördüm, Ər Ana gördüm.

Rəşid Dağlaroğlu Haqq Yoldan azma!
Cahil qınağından halını pozma.
Ay Allah sözümü günaha yazma!
Toyda divan gördüm, divanə gördüm.
Fırladır Dünyanı zamana gördüm.

***07.07.07.***

## Mənim Şəbü-hicranım

***Füzulinin Şəbü-hicranı aləmi yandırdı, mənimki özümü.***

Cəhənnəmi bu dünyada yaşadım!
Bilənmədim səbəbini günahın.
Yerdə, Göydə dinləyən yox dərdimi,
Kimə deyim?! Allahı yox Allahın.

Bu Tanrıdan baş açmıram, ay Lələ,
Rəhmi olan zülm elərmi bir belə?!
Hər gün dedim, Allah görür, səbr elə,
Bir az da döz, gümanı var sabahın.

Yalan sözdür – «Zaval yoxdur doğruya»,
Hac qismətdir yalançıya, oğruya.
Sən sıxırsan, mən dözürəm ağrıya!
Ay Yaradan, harda qalıb insafın?

Mən özümü tapanmıram, nə sirdi!
Mən hardayam, nə Səmadı, nə Yerdi?!
Yüz dərdim var bir-birindən betərdi,
Min dərdi var bir Allaha pənahın!

Xəyalımdan gəlir keçir dövranım,
Özümü yandırır Şəbü-hicranım!
Təkcə qalıb bir Allaha gümanım,
O da mənə həm uzaqdır, həm yaxın.

Dağlaroğlu, qismətinlə gəl barış,
Ruzin budur, ha çabala, ha çalış!
Sən, Allahın çox işinə az qarış,
Qismətinə zor gələnməz tamahın.

Çox demişəm gileylənmə Tanrıdan,
Xoşum gəlmir gileylidən, fağırdan.
Ər kişilər sızıldamaz ağrıdan,
Töhməti var hər gileyin, hər ahın.

***

Hər ixtiyar əlindədir şeytanın,
Ip salıbdır boğazına Dünyanın.
Halal kəsin, insanoğlu insanın,
Zəhmətinə-qismətinə bir baxın.

## Qulsan, qulluq elə

Ya dünya dəyişib, ya qocalmışam,
Bu dünya gözümdə heç zada döndü.
Arvadlar görmüşəm «kişiləşdilər»,
Nakişilər gördüm arvada döndü.

Bulanıb Dünyanın suyu, havası,
Nədir bu Göylərin Yernən davası?!
Gördüm haqqınadır Haqqın bəlası,
Oğul özgələşdi, qız yada döndü.

Qulsan, qulluq elə, ay Rəşid kişi,
Sənə ha qalmayıb Allahın işi.
Bəlkə tükənibdi Dünyanın yaşı?!
Dədə, çox gəmilər Dəryada döndü.

***

Yaman incimişəm özüm-özümdən,
Özüm də düşmüşəm özmün gözümdən.
Bu qoca vaxtımda, bu cür sözümnən,
Söhbətim zay oldu, üz oda döndü.

## Qalıbdı

Duz-çörəyim, dost-tanışım varıydı,
İndi əldə bircə əsa qalıbdı.
Süleymana, Şah Abbasa qalmadı
İndi Dünya Əlabbasa qalıbdı.

Mən demirəm köhnə əyyam necoldu?!
Mən deyirəm təzə əyyam bic oldu.
Doğru qaldı, oğru getdi Hac oldu,
Bizim kənddən mənnən Musa qalıbdı.

Dediklərim bayatıdır, bayatı!
Elə gördüm! Belə gördüm Həyatı!
Dana qaçdı, bir mən qaldım, bir çatı,
Rəşid yannı basa-basa qalıbdı.

***Əlbəttə Allah dərgahında, insanlar arasında sevilib-seçilən, xatırlanan Hacılarımız da çoxdur. Belələrinə hörmət və məhəbbət mütləqdir.***

## Belə də qalmaz

Sən demə adamlar çox varlananda,
Adamı dindirməz, adamı saymaz.
Çirkin əməlindən, dünya malından,
Nə başı açılmaz, nə gözü doymaz.

Insan yaranandan belədir qayda,
Şeytanlar işini görür dünyada,
Çox ata minəni gördüm piyada,
Allahın işindən baş açmaq olmaz.

Sınadım çoxunu - dostu, yoldaşı
Dedim fikr eləmə, ay Rəşid kişi.
Şeytanın əməli, bəndənin işi,
Allaha ayandır, belə də qalmaz.

## Yoxdur

Hər yer açıq bazardı,
Satmağa malım yoxdu.
Düz əlli il işlədim,
Almağa pulum yoxdu.

Əl vurmadım harama,
Yovuşmadım yalana.
Girişmədim talana,
Cahu-calalım yoxdu.

Hər şey qalıb əyriyə,
Haram qatıb hər şeyə!
Kəsir! «can» deyə-deyə,
Bu cürə zalım yoxdu.

Bu Dünya masmağıldı,
Niyə belə dağıldı?!
Rəşid, bu bir nağıldı…
Nağıla halım yoxdu.

***Dağlaroğlu, muğayat ol özündən!***
***Adamları tanıyırlar sözündən.***

## Bax

Azad Ölkə açıq bazar,
Satana bax, alana bax!
O, and içir, bu and içir,
Ortalıqda yalana bax!

Zurnaçılar zurna çalır,
Satan satır, alan alır…
Ölən ölür, qalan qalır,
Ölənə bax, qalana bax!

Qayıdırıq «özümüzə»,
Koxa gəlir kəndimizə.
Iş tapıbdı ağa bizə,
Dəyənəyə, palana bax!

Danışmayın orda-burda!
Əl çirkidir pul da, var da.
Gecələri keçir barda,
Gündüz namaz qılana bax!

Əъdər əmi, gir meydana,
Düzələn döy bu zamana.
Pullanana, tullanana,
Dəm tutana, çalana bax!

## Dünya gözəldi

Bəylərə qoşulduq, olanı yıxdıq,
Elə bildik dünya daha düzəldi.
El-oba sevindi – ağ günə çıxdıq!
Düzü, bu mənim də xoşuma gəldi.

Indi azad bazar, dəllal moddadır!
Əyri tərəzilər, al-ver xoddadır.
Hörmət şərəfsizdə, haram puldadır,
Alimlər alçaldı, cahil yüksəldi.

Indi beşi «ağa», beş yüzü quldu,
Indi «ağaların» and yeri puldu,
Çoxları dözmədi; sındı, qırıldı,
Çirkinlər çirkindi. Dünya gözəldi!

## Aldadır

Ay bala, dövran dəyişib,
Şeytanı insan aldadır.
Mən özüm də mat qalmışam!
Haram çörək də bal dadır.

Təzə bəylər çıxıb taxta,
Adamlar qalıb qıraxda.
Gəldik düşdük nə pis vaxta,
Allah, Dünya nə haldadır?!

Düz danışsan ac qalarsan,
Yalançıdan borc alarsan,
Eldə biabır olarsan!
Xeyir də, şər də puldadır.

Ulağa bax, çıxıb başa!
Anqırmağı gəlir xoşa.
Eşidəndən olsun haşa,
Gördüm dəyəri çuldadır.

Rəşid bilməz sözün təhri,
Dedikləri ilan zəhri.
Düz danışsan, yoxdu xeyri,
Qiyamət bala, daldadır!

## Qiymətinə

Mən də gileyliyəm, bizim bazardan!
Heç zad alanmıram öz qiymətinə.
Arada-bərədə dəllal olmasa,
Qoyun almaq olar qaz qiymətinə.

Arvad qovdu, o gün getdim bazara,
Ay qardaş, özümü saldım azara.
Ağ kələmi görməmişdim qızara,
Yazığı vermirlər düz qiymətinə.

Iynədən sapacan hər şey əllərdə,
Ucuzun tərifi gəzir dillərdə!
Ədalət axtardım zülm olan yerdə,
Bez ala bilmədim bez qiymətinə.

Aradım-öyrəndim bunları bir-bir,
Vallah, tapanmadım dəllaldan tacir.
Bunların üzünü yusun mürdəşir,
Çox astar satıblar üz qiymətinə.

Vəzifə zamanı, pul zamanıdı,

Ağa zəmanəsi, qul zamanıdı,
Reklam zəmanəsi, dil zamanıdı,
Qarı köçürürlər qız qiymətinə.

Rəşid Dağlaroğlu, bazardan qayıt,
Dəllal olan yerdə nə pir, nə seyid?!
Bu bazarda bir qəpik döy bir öyüd,
Sözü alan yoxdu söz qiymətinə.

***

Xəstələndik pul qazanmaq sarıdan,
Sağalmadıq ömür keçdi yarıdan.
Kimə baxıb rəhm eyləsin Yaradan?
Nə aldıq, nə satdıq düz qiymətinə.

## Mənim

Bir gün şükürsüz olmadım,
Nələr çəkdi başım mənim.
Çirkin gileydən-güzardan,
Vallah gəlmir xoşum mənim.

Yolu-izi duman alıb,
Saç ağarıb, qan qaralıb.
Duz-çörək də yalan olub,
Yan keçir yoldaşım mənim.

Eləmişəm ələk-vələk,
Düzələn döy Çərxi-fələk.
Daşdan çıxır halal çörək,
Daşdan keçir işim mənim.

Rəşid deyir ay Allahım!
Mən bəndənəm, var günahım!
Bəs hanı sənin insafın?!
Gen gəzir tay-tuşum mənim.

***

Halal çörək olub duzsuz,
Dostlar olub etibarsız.
Olanmaram mən vəfasız,
Qınar məni yaşım mənim.

## Yaxşıdır

Şükür olsun Yaradana!
Dünya, dövran da yaxşıdır.
Bütün torpaq müqəddəsdir!
Səcdə hər yanda yaxşıdır.

Dünya gör-götür dünyası,
Görüb-götürmək qalası.
Hər dövranın var səfası,
Görsən imkan da yaxşıdır.

Bax, gör dünya nə gözəldi!
Nə gördüm xoşuma gəldi.
Demə sözün nə məzəldi?
Sevsən ilan da yaxşıdır.

Elin gözü tərəzidir,
Düz görən xalqın gözüdür.
Yalan var sözün düzüdür,
Yaxşı yalan da yaxşıdır.

Gözəl gördüm Rəşidcanı,
Bu köhnə, təzə dünyanı.
Qınama qoca loğmanı,
Acı dərman da yaxşıdır,
Ölən, qalan da yaxşıdır.

## Hamıya xoş gələ

Hər yaşın öz söhbəti var,
Yaşın üstünə yaş gələ.
Demirəm ki, yaşlaşanda,
Yaşın üstünə daş gələ.

Oğul-qızdan nəvə görəm,
Öz qarımla ömür sürəm.
Aznı-çoxnu deyənmərəm,
Hər yaş hamıya xoş gələ.

Sədrə bir ərizə yazmışdım. Yazmışdım ki, 25 ildir bu kollektivdə işləyirəm. Ailəm böyüyüb, qayğılarım çoxalıbdı. Dükan-bazar da od tutub yanır. Satanda insaf yox, alanda imkan.

Əziyyətim, qazancım, ehtiyacım bir-birinə uyğun gəlmir. Mənim də maaşımı artırın. Gördüyünüz kimi xeyli təcrübəm də var. Haradasa ümumi işimizə daha çox fayda verə bilərəm. Mənim bu qədər yada düşməməyim heç insafdan da deyil. Ərizəmin bu yerində yaman qəhərləndim. Elə bil ki, axırını belə yazmağa məcbur oldum.

Hörmətli sədr, təvazökarlıqdan uzaq olsa da haqqı deyəcəyəm. «Inkişaf edən» elə «bəylər», elə «böyüklər» görürəm ki, onlara baxanda Allah haqqı mənim könlümdən «padşahlıq» keçir.

**Sizə dərin hörmətlə:**

**Imza qoydum, tarix yazdım.**

Təxminən üç aya yaxın gözlədim, cavab ala bilmədim. Öyrənmişdim ki, ərizəm ona çatıb, özündədir. Axırda balaca bir kağız yazıb göndərdim:

- Hörmətli Babək müəllim, 30 iyul 1993-cü il tarixdə Sizə ərizə yazmışdım. İndiyədək cavab almadığıma görə nigaranam.

Bir neçə gündən sonra sədr məni qəbul elədi. … Söhbətimiz ürəkaçan olmadı… «Olmur»u onda yazdım.

## Olmur

Heç bilmirəm necə yazım ərzimi?
Yaşım o yaş deyil, ağlamaq olmur.
Üç Şirvanşah beş nəfərə neyləsin?!
Həm də xeyir-şər var haqlamaq olmur.

Biri toy istəyir, o biri paltar…
Görürsən günümü ey Pərvərdigar!
Beş dəyqə bir yerdə tutmuram qərar,
Fikrimi bir yerə toplamaq olmur.

Indiyəcən bilməmişdim, qadası,
Çox olarmış kasıb evin davası,
Nə yamanmış uşaqların anası!
Əlini-dilini saxlamaq olmur.

Sözün düzü, qorxu düşüb canıma!
Insaf itib, baxan yoxdu qanuna.
Gedənmirəm qohum-qardaş yanına,
Xəstəyə baş çəkib yoxlamaq olmur.

Dəyişib zəmanə, dəyişib adət,
Alıb-aldatmaqdı indi fərasət.
Uşaqda işləyir, dolanmır külfət,

Ikəlnən bir başı saxlamaq olmur.
Evimiz oxşayır Milli Məclisə,
Qulaq batır, külfət verir səs-səsə.
Millət vəkilidi hərə, nə isə…
Lələ taqsırkarı yoxlamaq olmur.

Rəşid kişi, gərək Göydən daş yağa,
Gül kimi sözümü qoyurlar lağa,
Bizim evimizdə arvad-uşağa,
Sosyal vəziyyəti qandırmaq olmur.

20-ci əsrin axırları həm də Rus imperiyasının axırları idi. Azərbaycan xalqı da azad olmuşdu. Respublikamız yenidən öz müstəqilliyinə qovuşmuşdu. Müstəqilliyimizi çoxlarının gözü götürmürdü.

Yaxın-uzaq düşmənlərimiz yaman əl-ayağa düşmüşdülər. Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ münaqişəsi yenidən gündəmə gətirilmişdir. Çox dolaşıq oyunlar gedirdi. Erməni və Rus birləşmələri Azərbaycan torpağında yeni-yeni faciələr, təxribatlar törədirdi. Torpaqlarımızın xeyli hissəsi yenidən işğal olunmuşdur. Tariximizə, qan yaddaşımıza yazılan daha bir soyqırım – Xocalı soyqırımı törədilmişdir.

Ayrı-ayrı dəstələr, batalyonlar demək olar ki, Mərkəzdən idarə olunmadan pərakəndə halda döyüşürdülər. Fərarilik halları olurdu. Bütün bunlar müvəqqəti hallar idi. Nizamlı Milli Ordumuz formalaşırdı. Qisasımız, tam və qəti qələbəmiz uzaqda deyildi.

## Vətən

***Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəl demişdir:***

***- «Can şirindir, candan da şirin bir şey var, O, Vətəndir».***

Bu nə qovha-qovdur, nə qaçha-qaçdır?!
Bu nə getha-getdir, nə gəlha-gəldir?!
Qaçanın torpağı qovana qaldı,
Nə hünər düzəldi, nə var düzəldi!

Əsirdi qız-gəlin, dağılıb mahal!
Bilməm hara qaçır bu xallı maral?!
Dedim, ayə geri qayıt, qisas al,
Yersiz yaşamağın nəyi gözəldi?!

Dost-düşmən var dar gününə daralma,
Elə danış, elə yaşa, xar olma!
Ər kişilər görə nə deyib, kar olma!
- Can şirindi, Vətən ondan əzəldi,
- Vətənsiz dünyanın nəyi gözəldi?

## Beləymiş

Bir daxmada yüz dərdimnən dolandım,
Gördüm ki, zindanda dözüm beləymiş!
Hər dərdə min dəfə şükr eyləmişəm,
Nə bilim, bəlkə də lazım beləymiş.

Mən bilirəm borcum çoxdu Allaha!
Çox çalışdım çox batmayam günaha.
Mənim Tanrım gələn deyil insafa,
Qismətim beləymiş, yazım beləymiş.

Dağlaroğlu, xəbərdar ol sözündən!
Yaxşı danış düşməyəsən gözümdən,
Hər danışan xəbər verər özündən!
Söhbətin beləymiş, sözün beləymiş.

Rəşid kişi, Kişi olan ağlamaz,
Hər əyilən ibadətin anlamaz.
Allaha da qəbul deyil hər namaz,
Bilməmisən, canım-gözüm beləymiş.

***10.06.05.***

## Yaxşıdır

Hər yaşın öz sözü, öz söhbəti var,
Arsız qocalıqdan ölüm yaxşıdır.
Qanundan qabaqdır Ağsaqqal sözü,
Karsız qocalıqdan ölüm yaxşıdır.

Bir ömür yaşayır şöhrət də, şan da,
Gül də gözdən düşür rəngi solanda.
Insan belolmaya yaşa dolanda,
Nursuz qocalıqdan ölüm yaxşıdır.

Oğul da yaxşıdır, qız da, gəlin də,
Nəvə-nəticədə; hamsı yerində.
Yaman kövrək olur adam bu sində,
Yarsız qocalıqdan ölüm yaxşıdır.

## Dedim

Nahaq çıxdım söz ovuna,
Ondan birküç qatar dedim.
Elə bildim əyləncədir,
Buna gücüm çatar dedim.

Nə az yazdım, nə çox pozdum?!
Bir sözü yüz yerə yozdum.
Bu yozumdan nə tez bezdim!
Ürəklərə yatar, dedim.

Xoşlansamda qovha-qovdan,
Boş qayıtdım mən bu ovdan.
Baş tutmadı söznən sövdam,
Rəşid, bəsdi, yetər dedim.

## Arı gözlə

«Can-can» deyən dostlar gördüm,
Pərvanəydi var vaxtımda.
Döndü dövran, dağıldı var,
Gen gəzdilər dar vaxtımda.

Gələrdilər dəstə-dəstə,
Dincələrdik bulaq üstə.
Nə deyəsən dönük dosta?!
Yaşın ixtiyar vaxtında.

Dağlaroğlu, bəsdi, yetər,
Artıq söhbət zəhlə tökər.
Dilin çaşar qiybət elər,
Arı gözlə ar vaxtında.

## Mənim

Sevdim, seçdim, şükr eylədim!
Sandım ki, yarımsan mənim.
Baxdım gördüm, fikr eylədim,
Gördüm azarımsan mənim.

Mən səni bir mələk bildim,
Görüşünə niyə gəldim?!
Səninki döy mənim dərdim,
Necə nigarımsan mənim?!

Yar gördüm Yarın anlamaz,
Bağlama yaram sağalmaz.
Aşiq gözündən ağlamaz,
Ismi pünhanımsan mənim.

Dərmanım, yaman acısan!
Hər dərdimin əlacısan.
Vallah, başımın tacısan,
Vəfalı yarımsan mənim.
Təbib-dərmanımsan mənim.

***04.2006***

## Gələr

Allah hər şey verib insan oğluna,
Nə gəlsə başına özündən gələr.
Can deməklə candan can əksik olmaz,
Hörməti-töhməti sözündən gələr.

Aldanma! Aldatma! ay Rəşid kişi,
Allaha ayandır bəndənin işi!
Ağanın olmasa altıdan beşi,
Nökərin bir payı gözündən gələr.

## Mənnən

Mələk, sözlərimi günaha yazma!
Nədir bu Tanrının davası mənnən?!
Onu belə gördüm ağlım kəsənnən,
Səfası özgəynən, cəfası mənnən.

Hərdən soruşuram özüm-özümdən
- Ona neyləmişəm salıb gözündən?!
Lap təngə gəlmişəm mən bu dözümdən,
Qocaldım, düzəlmir arası mənnən.

Rəşid Dağlaroğlu, gileydən əl çək,
Günahı savaba yazanmaz Mələk!
Axtar tap özünə, özündən kömək,
Şəfası Allahdan, duası mənnən.

## **Itirmişəm**

Itirmişəm qardaşımı!
Gəzirəm tapa bilmirəm.
Yarı yolda bu nə tufan?!
Heç yana çata bilmirəm.

Hanı qardaş, gedib hara?!
Gəlin niyə geyib qara?!
Baxanmıram uşaqlara,
Necoldu, ata?! Bilmirəm.

Sabah fikir, axşam fikir,
Kim nə bilir, kim nə çəkir!
Rəşid ağlar hökür-hökür,
Gecələr yata bilmirəm.

***Mart 1998-ci il.***

## Olub

Sən Dünyanın işinə bax,
Mərd qovulub namərd olub!
Gör kim qovur, gör kim qaçır?!
Bu da mənə bir dərd olub.

Nə deyəsən belə vaxta?!
Eşqi saxta, gülü saxta,
Özüm qalmışam qıraxda,
Yurdum özgəyə yurd olub.

Bir bəri bax, ay Yaradan!
Hakim olub haqqı danan.
Nəcabəti çaqqal olan,
Indi qurdoğlu qurd olub.

Qınamayın məni, vallah
Dünyadan böyükdü tamah!
Görməmişdim belə iştah,
Gördüm, gözlərim dörd olub.

Rəşid, mərdi candan istə,
Can qurban ver yaxşı dosta.
Sınamışam toyda-yasda,
Həmişə mərd oğlu mərd olub.

## Bilmirəm

Dağlar qədər töhmətim var,
Üstümdən ata bilmirəm.
Ya sərxoşam, ya divanə,
Elə bir xata bilmirəm.

Hər yer bazar, qumarxana…
Böyük qəssab, kiçik dana.
Di gəl yaşa qana-qana,
Gecələr yata bilmirəm.

Mat qalmışam bu millətə,
Daşdı dözür hər zillətə.
Mən nə deyim bu qeyrətə?!
Özümü tapa bilmirəm.

Oynamağın gəlib dəmi!
Çal oynasın Əъdər əmi.
Biz içində batır gəmi,
Torpağa çata bilmirəm.

Dağlaroğlu, qəm eləmə,
Qəmi öznə yem eləmə.
Hər töhməti cəm eləmə,
Ağırdı, tuta bilmirəm.

## Yaltaq

Yaltaq namərd olar, xislətin çəkər,
«Can-can» eşitmişəm çox beləsindən.
Özgəsiz öyrəndim öznü özündən,
Niyə çörək kəsdim, ax! beləsinnən.

Kölgəyə girənin olmaz kölgəsi,
Olsa da çörəyi, olmaz süfrəsi.
Evlənməklə kişi olmaz beləsi,
Çoxdu beləlməri, yox beləsindən.

Rəşid, beləlari gəlməz karına,
Qulluq elər vəzifənə, varına.
Söysən dinməz atasının goruna,
Allah hifz eyləsin bax beləsindən.

Xalaoğullarım çoxdur. Üçümüz daha yaxın olmuşuq. Bəkir, Əmrah, bir də mən. Aramızda yaş fərqlərinin az olduğundan bu belədir, bilmirəm. Bəkirin yaxşı saz çalıb-oxumağı var. Bizi birləşdirən şəhər mühiti həm də bizi bir-birimizdən yaman aralı salmışdı. İş-güc başımızı elə qatmışdı ki, ara-sıra görüşə bilirdik.

Bir gün Bəkirlə rastlaşdıq, hal-əhval tutduq. Söhbətarası mənə dedi ki, xəbərin varmı Əmrah pensiyaya çıxıb? İnanmadım, elə bildim zarafat eyləyir. Dedim ki, Maşallah! Üzündə-başında hələ bir ağ tük də yoxdur; kişini nə tez qocaldırsan. And-aman elədi ki, vallah belədir. Özü də yaman fikirlənir. Vaxt eyləyək gedək ona bir baş çəkək.

Fikir məni götürmüşdü. Yolboyu onu fikirləşirdim. «Qocalığ»ı onda yazdım.

Bir axşam onu telefonda Bəkirə oxudum. Və xahiş elədim ki, gör bunu münasib havalardan birində oxuya bilərsənmi. Bilirəm, mənim sözlərim o qədər ipə-sapa yatan olmur. Bu münasibətlə bir məclis düzəldərik, orada oxuyarsan; Həm də bir «Surpriz» olar, xalaoğluna. Belə də oldu. Əmrahgilə toplaşmışdıq. Məclisin şirin yerində, məqamı çatanda Bəkir «Qocalığ»ı oxudu; insafən pis də oxumadı.

Əmrah yaman qəhərlənmişdi. Gözləri yaşla elə dolmuşdu ki, kiprikləri zorla saxlayırdı. Onu heç vaxt belə görməmişdim. Əmrah bizə yaş damlalarının arxasından baxırdı. Hər şey ona tutqun, dumanlı görünürdü.

## Qocalıq

Əmrah, gileylənmə ömür yolundan,
Vaxtında gələndə xoşdu qocalıq.
Ayə, nə tez çatdı pensiya yaşın?
Bəlkə məkanını çaşdı qocalıq?!

Qoca çox danışar, bütün gün ötər,
Yeyib-içdiyini yaxasına tökər.
Xaloğlu, bunları bilmirsən məgər?!
Yüzə yaxınlaşan yaşdı qocalıq.

Qocanın saqqalı ağ-appaq olar,
Axşamdan tez yatar, o başdan durar.
Hərdən nəvələrnən mərəkə qurar,
Bir azca da beldən boşdu qocalıq.

Elə ki, üzünə övlad «ağ» olar,
Bir yaz buludu tək boşalar-dolar.
Güldən kövrək olar, qəhər tez boğar,
Gileydi-güzardı, yaşdı qocalıq.

Bilirsən, sazınnan gələndə Bəkir,
Söhbəti axşamdan-sabaha çəkir.
Pensiya pulundan bir şey al gətir,

Yeməkdi-içməkdi, xaşdı qocalıq.
Rəşidin arzusu qoy çatsın başa,
Gülzar xanımınla ömür sür qoşa.
Nəvə-nəticə gör, səni yüz yaşa!
Dünyada hər şeydən başdı qocalıq.

## Dünyadı

Bu dünyanın işi, yaşı bilinməz,
Yaranandan İqtidara dünyadı,
Bir üzü ağ, biri qara dünyadı.
Oyuncaqmış onun-bunun əlində,
Bölük-bölük, para-para dünyadı,
Bir üzü ağ, biri qara dünyadı.

Deyirlər ki, Haqdan gəlib İsası,
Haqdan gəlib Məhəmmədi, Musası,
Bəlkə qalıb qiyamətə qisası?!
Peyğəmbəri çəkən dara dünyadı,
Bir üzü ağ, biri qara dünyadı.

Dağlaroğlu, avam varmı sən qədər?
Bu dünyanın işin-yaşın kim bilər?!
Sənin kimi gah ağlayar, gah gülər,
Gör nə böyük, nə bekara dünyadı,
Bir üzü ağ, biri qara dünyadı.

**Təzə bəylər**

***(Söhbət saxta bəylərdən gedir)***

Əъdər əmi, dünya yaman dəyişdi,
Təzə bəylər iş başına gələndən.
Azad oldum, bekar qaldım nə işdi?!
Təzə bəylər iş başına gələndən.

Xalça-palaz, yorğan-yastıq qalmayıb,
Ev-eşikdə heç nə sattıq qalmayıb,
Hörmət itib, insanattıq qalmayıb,
Təzə bəylər iş başına gələndən.

Köç qayıdıb, axsaq düşüb qabağa,
Bilməmişdim, nə çox imiş «bəy», «ağa»,
Xam görübdü yad dadanıb torpağa,
Təzə bəylər iş başına gələndən.

Siyasətdən dil-dil ötür kəmsavad,
Ay Yaradan, adam yarat, az yarat

Qanun çıxıb bir kişiyə beş arvad,
Təzə bəylər iş başına gələndən.

Əyilibdi bu dünyanın təməli,
Allah bilər bir də nə vaxt düzəli,
Bic yanında alim olub gülməli,
Təzə bəylər iş başına gələndən.

## Ay Lələ

Bu bazardan baş açmıram, ay Lələ!
Fürsət tapan söküb-satır Dövləti.
Özəlləşir, özgələşir el malı,
Müxənnətlər çöldə qoyub milləti.

Oğru-əyri yaman düşüb irəli,
Hər tərəfdən bağlanıbdı düz əli.
Bic yanında alim olub gülməli,
Dastan olub şərəfsizin şöhrəti.

Evdəkilər qazancımı bilirlər,
Billə-bilə lap zəhləmi tökürlər.
Üç manata bir çürük diş çəkirlər,
Beş manata gəl dolandır külfəti!

Saraylarda xumarlanan cənablar,
Öz Yurdunda yurdsuz qalıb adamlar!
Bu millətin namus qədər dərdi var!
El götürməz bir bu qədər töhməti.

Dağlaroğlu, fikr eləmə dərindən,
Qeyrət umma qeyrətsizin birindən.
«El bir olsa dağ oynadar yerindən!»
Gəl burdaca biz qurtaraq söhbəti.

## Qocalıq da bir ucalıqdır

Qocalıqdan gileylənmək günahdır,
Halbahal oluram, hal əldən gedir.
Qaçmaq olmaz qocalığın əlindən,
Gəlir əldən gedir, gəl əldən gedir.

Özüm gedən yerə sözüm gedənmir,
Daha uzaqlara gözüm gedənmir,
Tanrı dərgahına arzum gedənmir,
Dilək əldən gedir, dil əldən gedir.

Minənmirəm, yapışmışam yəhərdən,
Incimişəm əyri baxan kəhərdən.
Qocalıram, sözüm düşür kəsərdən,
«Ruh hanı?!» çalıram tel əldən gedir.

Bala, qocalıq da bir ucalıqdır!
Ucalıq özü də bir qocalıqdır.
Elə də, belə də bir yamanlıqdır,
Salam əldən gedir, əl əldən gedir.

Rəşid, arzuna çat,– səksən il yaşa!
Allah verən ömrü Haqqına yaşa.
Ay Allah, Yarımnan qarıyım qoşa!
Heç vədə demərəm mal əldən gedir,
Dəmirdən, kağızdan pul əldən gedir.

***Ataların sözü Ata mülküdür.***
***Hər tikilən saray Tac-Mahal olmaz.***

## Ata mülkü

Ataların sözü ata mülküdür.
Hər tikilən saray Tac-Mahal olmaz.
Saqqal da ağarar, saç da ağarar,
Hər saqqalı ağdan Ağsaqqal olmaz.

Dövran dövr eləyər, dönməz tərsinə,
Adam gərək bələd ola fəhminə!
Ağlın olsun, çox güvənmə bəxtinə,
Dünyanın malından sənə mal olmaz.
Nə gözlərin doymaz, nə halal olmaz.

Dünya toy-bayramdı, gəlibdi dəmi!
Deyəsən sərxoşluq söylədir məni.
Rəşid Dağlaroğlu, qınarlar səni,
Hamı sənin kimi əhli-hal olmaz.
Hər insan övladı pir-kamal olmaz.

## Divan

Rəşid! Sən də saç ağartdın, dədə çox şey bilmədin,
Həm özündən, həm özgədən agah edim gəl səni.
Düz danışdın düzdə qaldın, əyilmədin əyriyə,
Sən əyriyə əyri dedin, gör neylədi dil səni!

Hərənin bir dövranı var dövr eləyir dövrandı…
Görməmişi görməmişdim, iştahı nə yamandı!
Tamahını təmiz saxla, sənə qismət qalandı,
Cangüdənə güvənməynən, Allah saxlar bil səni.

O bilmədi, mən bilirəm, məsləkindən dönmədin,
Sən sınaqlı bir Ocaqsan! Haqq yandırıb sönmədin.
Sən Haqqa qulluq elədin, haqsızlığa enmədin.
«Keçmə namərd körpüsündən, qoy aparsın sel səni».

Dağlaroğlu, hər şeyin var səbrin yoxdu, səbr elə,
Zəhmətindən-qismətindən gileylənmə bir belə.
Dünya şirin. İnsan gözəl. Yaradana şükr elə!
Düşmə Rəbbin nəzərindən! Gözdən salmaz el səni;
Qarşısında el dayanar, aparanmaz sel səni.

## Var

Dinlə məni, əziz balam,
Ata sözün faydası var.
Dünya şirin! İnsan gözəl!
Bunların çox cəfası var.

Sev Dünyanı! Sev İnsanı!
Yaxşı öyrən! yaxşı tanı!
Bir fikirdə olmaz hamı,
Hər başın bir sevdası var.

Yazan yazmasın günaha!
Oğul, and olsun Allaha!
Sözdən ucuz, sözdən baha,
Heç nə yoxdur qaydası var.

Elə danış gəlsin xoşa,
Yaxşı söhbət tacdır başa!
Söz var səni çəkər başa,
Söz var yaman yarası var.

Bu qaydadır əziz bala,
Adam gərək işin bilə!
Söz demərəm elə-belə,
Hər dövranın səfası var.

Qoy, Allah sizə yar olsun,
Qoy, hamı bəxtiyar olsun!
Alqışım bərqərar olsun.
Ata xeyir-duası var.

## Iki söz

Heç kim xəstələnməsin,
Ən böyük dərmandı söz.
Baxmışdım, görməmişdim,
Gördüm ki, loğmandı söz.

Söz var dərdin davası!
Söz var başın bəlası!
Uzun sözün qısası,
Hər dərdə dərmandı söz!
Hər yerdə loğmandı söz!

Eşidin ay balalar!
Atalardan söz qalar.
Sizə iki sözüm var.
Yaxşıdı, yamandı söz!
Söz olsun amandı söz!

## Böyük əsər

Ağa, sənə bir söz deyim,
Sözümü qoy söz yerinə.
Vallah, Vətən cənnət olar,
Hərəni qoy öz yerinə.

Rəşid, sözün de müxtəsər,
Az yazılar Böyük əsər.
Yüz əyrini bir düz kəsər,
Düzü qoysan düz yerinə.

## Öyüd

Öyüd vermə özgəsinə,
Öyüdünü balana de.
Öyüd vermək çətin şeydi,
Öyüdünü alana de.

Söz pul deyil, xırdalama,
Xırda sözü qurdalama!
Divanədən dərd eləmə,
Divanəyə divanə de.

Gileylənmə bu bazardan,
Dərman olur zəhərmardan.
Pəhriz saxla şirin vardan!
Rəşid, sözün qanana de.

## Deyənməz

Atalardan bir məsəl var
- Baş deyəni yaş deyənməz.
Həqiqətdə hikmət də var,
- Yaş deyəni baş deyənməz.

Kasıb adam olmaz hacı,
Heç Allah da sevmir acı.
Mənim kimi dili acı,
«Can» da desə xoş deyənməz.

Kim ayırıb bizdən bizi?
Tapanmırıq özümüzü
Dağlaroğlu şirin sözü,
Acı deyər, boş deyənməz.

## Qazanca bax

Çətinləşib gün-güzaran,
Insaf itib dözənmirəm.
Dəyişibdi qazanc yolu,
Mən yolumu azanmıram.

Qazanca bax, Allah hoydu!
Ehtiyacım gör nə boydu?!
Düzlük məni düzdə qoydu,
Əyriynən də gəzənmirəm.

Ucalmaqçün alçalmadım,
Ləbbey deyib əl çalmadım.
Qurd Qafardan «dərs» almadım,
Qazanmadım; qazanmıram.

Rəbbin üzü döysə bəri,
Çağırmağın yoxdu xeyri.
Düz söz olub ilan zəhri,
Başqa cür də yazanmıram.

Indi mənə olub agah,
Düzlükdəymiş demə günah!
Sözün düzü, bunu vallah,
Bir tərəfdə yozanmıram.

## *Zarafatdan xoşum gəlir*

## Dastan olub

Dolanmamız dastan olub,
Dövlətimiz başdan aşır.
Arvad evdə dil-dil ötür,
Gah deyinir, gah dalaşır.

«Can» deyirəm «azar» deyir,
Yatanacan söyünc söyür.
Uşaq bir-birini yerir,
Siçan pişiknən oynaşır.

Evi basır tüstü-duman,
Heç kim bilmir nədi yanan!
Boğuluram, kimdi qanan?!
Dam-daş başıma dolaşır.

Mən Aşığam, arvad Ozan,
Şükür sənə Yazıyazan.
Deyişəndə tutur divan,
Ağzımda dilim dolaşır.

Bu nə sirdi görən arvad?
Qohum-qardaş olubdu yad!
Sənə dəymir ağcaqanad,
Mənim canıma daraşır.

Dinclik istər yaşa dolan,
Rəşid kişi de gəl dolan.
Sevgilindir sənə qalan,
Istəklin sənə yaraşır.

## Məni

Kürd qızına könül açdım,
Başında fırlatdı məni.
Zalım qızı bir əlinnən
Altı metir atdı məni.

Sənəyindən su içmişdim,
O vaxtdan oda düşmüşdüm,
Kor olub onu seçmişdim,
Gözümdən qaraltdı məni.

Söz vermişdi neçə kərrə,
Özgəsinə getdi ərə,
Neyləmişdim mən beçərə?!
«It» qızı aldatdı məni.

Indi özü «bay-bayında»
Mən qalmışam can hayında
Bir dəfə də kürd toyunda
Zurnasız oynatdı məni

Hamı deyir nə göyçəkdi!
Canım ondan nələr çəkdi!!!
Yox-yox, bu qız bir mələkdi
Yerdən göyə dartdı məni.
Tutub zarafatdı məni.

## Kəndə məktub

Məzəlidir burda hər şey,
Təpələrə dağ deyirlər.
Sarı daşa, sarı qaya,
Qum düzünə bağ deyirlər.

Burda bazar çoxdu Bəkir,
Tərəzilər əyri çəkir!
Ay xaloğlu, kəndə şükür,
Ayrana qeymağ deyirlər.

Andın mənə yoxdur qardaş!
Gözlərinlə görəydin kaş.
Otururlar yerdə bardaş,
Çəpik çalıb lağ deyirlər.

Bu bir ayda gəldim təngə,
Gücüm çatmır çıxam cəngə.
Göz görəsi qara rəngə,
Rəşid canı «ağ» deyirlər.

## Sözümü dedim

Söz satıram, alan alsın,
Yaxşını seç, qalan qalsın.
Aralıqda insaf olsun,
Qalanı pis yerə yozma

Ay sözünü məndən alan,
Sözlərimdə yoxdu yalan.
Söz mülkündə sərraf olan,
Qiymət qoyar hər sözümə.

Gülmə bu gödək sazıma,
Külfətə kömək sazıma.
Toyda-şanda, mərəkədə,
Sözümə söykək sazıma.

***Dağların dastanı***

## Dağların dastanı

Qayğı qatıb başımızı,
Görüşürük az-az qardaş.
Nə var, nə yox qadan alım?
Söhbət elə bir az qardaş.

Axtarmayaq taqsırkarı,
De, necədi Gülgəz qarı?
Yığışdırın uşaqları,
Dağa gəlin bu yaz qardaş.

Yaz gələndə Dağ Borçalı,
Gəl gör olur nə səfalı.
Binələrdə elin malı,
Dəyələrdə saz-söz qardaş.

Fəsillərin belə vaxtı,
Dəli Dağın dərdi çoxdu.
Gül əlindən yeri yoxdu,
Tünlük olur yol-iz qardaş.

Çağıracam yaza yaxın,
Gedək Ağlağana baxın.
Burda ulduz Yerə yaxın,

Göylər olur dayaz qardaş.
Bu dağ yaman səfalıdı,
Amma biraz cəfalıdı.
Başı bəyaz çalmalıdı,
Çayları var sal buz qardaş.

Bir də gördün bulud gəlir,
Lalə, Lilpar silkələnir.
Dolu düşür, damı dəlir,
Əlin kəsir ayaz qardaş.

Yadındamı Ov Dərəsi?
Osmanın bişmiş fərəsi,
Qıcırtikandan kətəsi…
Olmuşuq lap taraz qardaş.

Gəl doyunca bir saz çalaq,
Göy çəməndə süfrə salaq.
Sözü sazdan xəbər alaq,
Açılsın könlümüz qardaş.

Ismarlarıq dostlar gələr,
Kef açılar, könül gülər.
Dost ki dosta qulluq elər,
Heç vədə yorulmaz qardaş.

Şan-şöhrətə yoxdu maraq,
Nəyə lazım dəfədaraq…
Göylükdə yerdən oturaq,
Şiş gəldikcə sən süz qardaş.

Sən məndən yaxşı bilirsən,
Hər sözün qədrini bilsən,
Vaxtında, təhrində desən,
Bir qızıldı hər söz qardaş.

Əldən vermə ixtiyarı,
Özün deynən sağlıqları…
Yüzqıramı bölmə yarı,
Nə çox olsun, nə az qardaş.

Nə dərdimiz zəmanədən,
O, dərd çəksin divanədən.
Qəmdən, kefdən, meyxanədən,
Nə gileylən, nə bez qardaş.

Möcüzədir bizim dağlar,
Güneydə gül, quzeydə qar.
Şimşək çaxar, Göy yarılar,
Leysan yağar tez-tez qardaş.

Çimər çiçək, çimər çəmən,
Göy guruldar hərdən-hərdən.
Belə Göydən, belə Yerdən,
Olmayıbdı, olmaz qardaş.

Bu yağışda çöldə qalam,
Yapıncıda daldalanam.
Cənnət budur, vallah balam!
Acı olur düz söz qardaş.

Bu dağların çiçəyi var,
Sarı, xırda ləçəyi var.
Bütün dərdə köməyi var,
Ətri getməz, solmaz qardaş.

Biçənəyin gəlir ətri,
Unudursan dərdi-səri.
Allah haqqı bundan ötrü,
Gül məni qınamaz qardaş.

Bir Mələkdir Hürü, Pəri…
Hardan alım Ələsgəri
Tərifləyə gözəlləri,
Indi hanı o söz qardaş?!
Indi hanı o saz qardaş?!

Say-seçmədi oğlanları,
Hər birində dağ vüqarı!
Cavanları, qocaları,
Xeyir-şərdən qalmaz qardaş.

Bizim dağlar meşəsizdi,
Dağı Dağdı! Düzü Düzdü!
Gödək ömrü burda yüzdü,
Uzaq olsun pis göz qardaş.

Qışı ayrı bir dastandır…
Düz yazacan qar-borandır.
Yer-Göy yoxdu, bir tufandır!
Nə evdən çıx, nə az qardaş.

Zəm-zəm içdim bulaqlardan,
Çox öyrəndim bu dağlardan.
Rəşid bilən, hər sarıdan,
Dost-dostu sınamaz qardaş.

Kamil olan bir Allahdır.

***

Allahın verdiyindən böyük Var-Dövlət yoxdur.

***

Dünya Şirin! İnsan Gözəl!
Yaradana Şükr elə!

***

Qəlb Allahın evidir, Onu Allahın adına layiq təmiz və işıqlı saxla.

***

Allah olan Yerdə nə qorxu, nə qəm?!

***

Haram pulla tikilən Məsciddə dua qəbul olmaz.

***

Düz danışmaq təvazökarlıqdan irəlidir.

***

Gözəl gördüm danışanda çirkinləşdi;
Çirkin gördüm danışanda gözəlləşdi.

***

Iki şeyi yaxşı bil –
- İşini-peşəni, sözünü-söhbətini.

***

Söz var söhbətə dəyər,
Söhbət var sözə dəyməz.

***

Günah nədir?! Savab nədir?!
Təbiətin öz gözəlliyinin tayı-bərabəri yoxdur. Çünki onu Allah yaradıb. Allahın yaratdığına bəndə düzəliş eləməz! Bu günahdır! ona qulluq elər! Bu savabdır!

***

Böyüyün haqsız olmağa haqqı yoxdur.

***

Başa fikir verdim mən zalımoğlu,
Gördüm cibindədir adamın ağlı

***

Yaxşı nəyim varsa Allah verəndi,
Pis nəyim varsa mənimkidi.

***

Saf adam sağlam olar,
Pisi dərman da sağaltmaz.

***

Səni çətinlikdə qoyan ağıl, ağıl deyil.
Qüsurludur.

***

BÖYÜK kiçiyi incitməz.
BÖYÜK kiçikdən inciməz.

***

Çox ata minəni gördüm piyada.

***

Bədbəxt o adamdır ki, xoşbəxtliyini görə bilmir.

***

Səbrsiz adam özünə düşməndir.
Belələrini Allah da sevməz.

***

Qocalıq da bir ucalıqdır.

***

Yaxşı adamın dərmana ehtiyacı çox olmaz.

***

Milyonların, milyardların…
bünövrəsi bir qəpikdir.

***

Ana, Allahdan sonra, peyğəmbərdən irəlidir.

***

Evi-Ailəni Kəbəyə də döndərmək olar, zindana da.

***

Incitməyə fağrı tapdım.
Sağ canımda ağrı tapdım.

***

Sərt danışanla, mülayim danış.

***

Xoş rəftar xoşbəxtlik gətirər.

***

Gileylənmə – Çoxdu dərdim!
Ağlın varsa – Yoxdu dərdin!

***

Yaxşı adam, yaman gündə qalmaz.

***

Dünyanı öyrən! İnsanları tanı!

***

Ataların sözü dərman kimidir,
Ondan hər yerdə və necə gəldi istifadə etmək olmaz.

***

Allahsız adam peyğəmbərə də böhtan atar.

***

Yaşadığın dünyadan xəbərin olsun.

***

Böyüklüyü hər adama tapşırmazlar.

***

Nə qədər maraqlı olsa da eyni sözü çox təkrarlama.

***

Bir var rus dilini bilmək,
Bir də var rusun dilini bilmək.

***

Dünya öz yaxşıları və pisləri ilə gözəldir.
Başqa cür O, heçzad olardı.

***

Keçəlin bəxti gətirməyəndə
saçı da dolaşıq düşər.

***

Borc yükü daha ağırdı, çünki onda töhmət yükü də var.

***

Rahatlıq zəhmətə, zəhmət rahatlığa bağlıdır.

***

Çox şeyi bil, hər şeyi danışma.

***

Düzün işini əyri görənməz, əyrinin işini düz.

***

Şah Abbasa qalmayan dünya Əlabbasa da qalmaz.

***

Əyər-əysiyliyim çoxdur,
Gileylənməyə haqqım yoxdur.

***

Ağalıq Böyüklük deyil.

***

Insan özünə münasibəti özü qazanar.

***

Ataların sözü, Ata mülküdür.

***

Kasıblıq da məhbusluqdur.

***

Kasıb cəzasını azadlıqda çəkər.

***

Yaxşılıqdan yorulmazlar.

***

Sevməsən, sevməzlər.
Söyməsən, söyməzlər.

***

Dedim ki, ağlına gələni danış,
Demədim ki, ağzına gələni danış.

***

Yaxşılar və yaxşılıqlar yaşayacaq.

***

Çox danışmaq cana ziyandır, insana nöqsandır.
Az danış, yaxşı danış. Bu həm də savabdandır.

***

Çox danışıb sözü hörmətdən salma,
Söz də səni hörmətdən salar!

***

Hər şeyin həddi var, həddi aşanda hörmət də hörmətdən düşər.

***

Elədiyin hörmət sənin öz hörmətinə xərər gətirirsə onu eləmə.

***

Dərman içməklə əcəldən qaçmaq olmaz.

***

Allahın yaratdığına bəndə düzəliş eləməz; ona qulluq elər.

***

Bu Həyat elə Böyük bir kitabdır ki, Onu hamı oxuyur, öyrənir, özünə görə dərk edir. Bu Kitabda sən özün də varsan. Bu kitabı oxuyub-qurtarmaq mümkünsüzdür.

***

Insan Dünyanın kiçik modelidir
(və bir-biri ilə əlaqəlidir).
Ən düzgününü və yaxşısını Allah özü bilər.

***

Belə gördüm, belə yazdım,
Yazan günaha yazmasın.
Yovuşmadım yabançıya,
Məni yabançı yozmasın.

**RƏŞID DAĞLAROĞLU**

**QƏLB ALLAHIN EVIDIR**

Yığılmağa verilmişdir 05.06.2007
Çapa imzalanmışdır 09.06.2007
Kağız formatı 60x84
H/h həcmi 8.5
Tiraъ 200

*Təknur MMC-nin mətbəəsində çap edilmişdir*
*Ünvan: H.Cavid 31*